## "Azərbaycan Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq".

**Ümummilli lider Heydər ƏLİYEV**

Fevralın 25-də AMEA-nın Əsas binasında Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı keçirilib. Bu barədə qəzetimizin əvvəlki sayında məlumat vermişdik. Oxucularımızın xahişi ilə qəzetimizin bu sayından başlayaraq, Elmlər Akademiyasının təsisçiləri haqqında məqalələri diqqətinizə çatdıracağıq.

* * * *

*Azərbaycan dünyanın ən qədim elm və mədəniyyət mərkəzlərindən biridir. Onun tarixi ərazisinin sakinləri minilliklər ərzində zəngin mədəni və maddi irs yaratmışlar. Qədim mədəniyyət abidələri arasında elmi əsərlərin də sayı az deyil.*

*Azərbaycan elminin, onun intellektual dəyərlərinin milli sərvət kimi qəbul edilməsində Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) mühüm rolu olmuşdur. Bakı Universitetinin yaranması, azərbaycanlı tələbələrin Avropa ali məktəblərinə göndərilməsi, milli dilin, mədəniyyətin intişarı, bütövlükdə Azərbaycan elminin inkişafına mühüm təsir göstərən amillərdən olmuşdur. 1920-ci ilin əvvəllərində respublikada elmi tədqiqatlar, əsasən, Bakı Universitetində mərkəzləşmişdi.*

*1923-cü ildə elmi-tədqiqat işləri aparmaq üçün Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti yaradıldı. Bu cəmiyyət respublikanın baş elmi müəssisəsi oldu. İlk dövrdə cəmiyyətin tərkibinə Tarix, Etnoqrafiya, İqtisadiyyat və Təbiətşünaslıq bölmələri daxil edilmişdi. 1925-ci ildə Cəmiyyət Azərbaycan hökumətinin sərəncamına verildi. 1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yenidən təşkil edilərək Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu (DETİ) adlandırıldı.*

*Azərbaycanda elmi tədqiqatların yüksək səviyyədə aparılmasını və inkişaf etdirilməsini, elmi və elmi-xidmət müəssisələrinin işinin səmərəliliyinin yaxşılaşdırılmasını təmin etmək məqsədilə 1932-ci ildə Azərbaycan DETİ əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi təşkil edildi. 1935-ci ilin oktyabrında şöbə SSRİ EA Azərbaycan Filialına çevrildi.*

*SSRİ Xalq Komissarları Sovetinin 1945-ci il 23 yanvar tarixli qərarı ilə filial Azərbaycan EA-ya çevrildi. Azərbaycan SSR Elmlər Akademiyasının 15 nəfərlik ilk təsisçiləri – birinci akademikləri müəyyən olunub. Azərbaycan SSR Xalq Komissarları Sovetinin "Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması haqqında" 1945-ci il 27 mart tarixli, 316 saylı qərarı ilə ölkəmizdə Elmlər Akademiyasının təsis edilməsi rəsmiləşdirilib, onun Nizamnaməsi təsdiq olunub.*

*1945-ci il martın 31-də akademiyanın həqiqi üzvlərinin ilk ümumi iclasında Mirəsədulla Mirqasımov EA-nın prezidenti seçildi.*

*Sonrakı illərdə Yusif Məmmədəliyev (1947-1950, 1958-1961), Musa Əliyev (1950-1958), Zahid Xəlilov (1961-1967), Rüstəm İsmayılov (1967-1970), Həsən Abdullayev (1970-1983), Eldar Salayev (1983-1997), Fərəmaz Maqsudov (1997-2000), Mahmud Kərimov (2001-2013), Akif Əlizadə (2013-2019), Ramiz Mehdiyev (2019-2022) akademiyanın prezidenti olmuşlar. Akademik İsa Həbibbəyli 25 oktyabr 2022-ci il tarixində AMEA-nın yeni prezidenti seçilmişdir. 26 oktyabr 2022-ci il tarixində ölkə başçısı tərəfindən bu vəzifəyə təsdiqlənmişdir.*



**Mirqasımov Mir Əsədulla Mir Ələsgər oğlu (1883-1958)**

Azərbaycan Elmlər Akademiyasının (indiki Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ilk prezidenti, tanınmış ictimai xadim, ilk azərbaycanlı alim-cərrah, ilk tibb elmləri doktoru, Əməkdar Elm Xadimi, akademik Mirəsədulla Mirqasımovun adı xalqımızın qürur və məhəbbətlə çəkdiyi adlar sırasında xüsusi yer tutur. İlk azərbaycanlı alim-cərrah Mir Əsədulla Mirqasımov 17 noyabr 1883-cü ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1908-ci ildə gimnaziyanı bitirmişdir. Gimnaziyanın yuxarı siniflərində oxuyarkən o, ictimai fəaliyyətə başlamış, qəzet və jurnallara məqalələr yazmışdır.



1913-cü ildə Odessa şəhərində Novorossiysk İmperator Universitetinin (hazırda İ.İ.Meçnikov adına Odessa Milli Universiteti) tibb fakültəsini bitirmişdir. 1914-cü ildə Novorosiyski Universitetinin elmi əsərlər toplusunda çap olunan "Süni pnevmotaraksla ağciyər vərəminin müalicəsi" adlı ilk elmi məqaləsi ilə elm aləminə qədəm qoymuşdur. 1916-cı ilədək Odessada həkim, 1916-1929-cu illərdə Bakıda hərbi lazaretdə cərrah, Azərbaycan Dövlət Universitetinin tibb fakültəsində dosent işləmişdir.

1920-ci ildən etibarən Mir Əsədulla – Mixaylovsk xəstəxanası cərrahiyyə şöbəsinin ordinatoru, sonralar Azərbaycan Dövlət Universitetinə öncə prozektor, bir müddət sonra operativ cərrahiyyə və topoqrafik anatomiya kafedrasında ordinator vəzifəsində işləməyə dəvət edilmişdir.

Təcrübəli həkim-pedaqoq M.Mirqasımov Tibb Universitetinin və Səhiyyə Nazirliyinin qərarı ilə doktorluq dissertasiyasını tamamlamaq, elmi araşdırmalarını yekunlaşdırmaq üçün 1926-cı ildə yarım illiyə Berlin, Drezden, Leypsiq, Münhen Universitetlərinə ezam olunmuşdur. 1927-ci ildə "Azərbaycanda sidik daşı xəstəliklərinin öyrənilməsinə dair materiallar" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdır. İlin sonunda öncə hospital cərrahiyyə kafedrasına privat dosent, sonra isə dosent seçilmişdir.

M.Mirqasımov Azərbaycanda uroloji xəstəliklər üzrə doktorluq dissertasiyası müdafiə edən ilk milli mütəxəssis kimi səhiyyə tariximizdə özünə layiqli və əbədi yer tutmuşdur. İstedadlı alimin müvəffəqiyyətlə müdafiə etdiyi doktorluq dissertasiyasının motivləri əsasında çap etdirdiyi (1928) monoqrafiya indi də öz praktiki əhəmiyyətini, aktuallığını itirməmişdir. Bununla da ilk azərbaycanlı alim-cərrah adına yiyələnmiş, tibbi cərrahiyyə elmi məktəbinin əsasını qoymuşdur. 1929-cu ildə professor adını alan M.Mirqasımov 1931-ci ildən Hospital cərrahiyyə kafedrasına müdir təyin olunmuşdur. Elə həmin ildə ana dilində yazdığı, bu gün də elmi dəyərini saxlayan "Ümumi cərrahiyyə" dərsliyi ilə səhiyyə tarixinə ilk dərslik müəllifi kimi daxil olmuşdur.

M.Mirqasımov 1934-cü ildə Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə (AMİK) üzv seçilmişdir.

1935-1936-cı illərdə professor M.Mirqasımovun Tibb Universitetinin Böyük Elmi Şurasının qərarı ilə tərtib ediyi "Kliniki cərrahiyyənin tədrisi proqramı" elmdə, tədrisdə əsl hadisə oldu.

M.Mirqasımov üç çağırış 1937, 1946 və 1950-ci illərdə eyni ərazidən – Xaçmaz dairəsindən SSRİ Ali Sovetinə deputat seçilmişdir.

M.Mirqasımov 1945-ci ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmiş, 1945-1947-ci illərdə Azərbaycan SSR EA-nın ilk prezidenti olmuşdur. Akademik M.Mirqasımov Böyük Vətən müharibəsi illərində elmin və Akademiyanın inkişafındakı xidmətlərinə görə Lenin (1946), Qırmızı Əmək Bayrağı (1950) ordenləri ilə təltif olunmuşdur.

O, 1947-1950-ci illərdə nəşr olunan "Qarın yatalağının cərrahiyyəsi" adlı fundamental əsəri ilə dünya səhiyyəsinə töhfə vermiş, insanların üzləşdiyi bu infeksion xəstəliklə mübarizədə bu əsər demək olar ki, mənbə olmuşdur.

Akademik M.Mirqasımov Azərbaycanın Əməkdar elm xadimi adına layiq görülmüş, Lenin ordeni, 2 dəfə Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz ordeni və medallarla təltif edilmişdir. 6 monoqrafiya və dərsliyi, 50-dən çox elmi əsəri nəşr olunmuşdur.

Azərbaycan SSR EA-nın ilk prezidenti, tanınmış ictimai xadim, Azərbaycanın ilk tibb elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın həqiqi üzvü, Azərbaycan SSR əməkdar elm xadimi, ilk azərbaycanlı alim-cərrah, SSRİ Ali Sovetinin (üç çağırış) deputatı Mir Əsədulla Mir Ələsgər oğlu Mirqasımov 20 iyul 1958-ci ildə Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.



**Məmmədəliyev Yusif Heydər oğlu (1905-1961)**

Kimyaçı alim Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur. Təhsilini öncə evdə, sonra isə yeni tipli Ordubad məktəbində almış, 1918-ci ildə ailəsi ilə birlikdə Təbrizə köçmüş, Rüşdiyyə 7 illik məktəbində təhsilini davam etdirmişdir. O, 1920-ci ildə Naxçıvanda ilk qızlar məktəbinin təməlini qoymuşdur.

Y.Məmmədəliyev 1923-cü ildə Azərbaycan Pedaqoji İnstituna daxil olmuş, 1924-1926-cı illərdə təbiət elmləri fakültəsində təhsilini davam etdirmişdir. O, 1926-cı ildə Gəncə şəhərinə, 1928-ci ildə isə İrəvan Pedaqoji Texnikumuna müəllimliyə göndərilmiş və 1929-cu ildə Moskva Dövlət Universitetinə daxil olmuşdur. Təhsilini bitirdikdən sonra universitetdə qalıb işləmiş, laboratoriyada neft qazlarından qiymətli kimyəvi məhsul alınması prosesinin işlənib hazırlanması və praktik tətbiqində iştirak etmişdir.

1932-ci ildə Mərkəzi Komitənin qərarı ilə Gəncə Kənd Təsərrüfatı Akademiyasının kimya kafedrasının müdiri vəzifəsinə təyin olunmuşdur. Azərbaycan Elmi Tədqiqat Neft Emalı İnstitutunda kiçik və böyük elmi işçi vəzifələrindən laboratoriya müdiri vəzifəsinə kimi yüksələn alim Moskvada çalışarkən neft qazlarından qiymətli kimya məhsullarının alınması istiqamətində tədqiqatlar aparmış, ilk dəfə olaraq neft qazlarından sintetik kauçukun alınması ideyasını irəli sürmüş, 1933-cü ildə "Etil spirtinin neft qazlarından alınması" adlı elmi əsərini nəşr etdirmişdir. 1934-cü ildə Azərbaycanda "Süni kauçukun problemləri" adlı məqaləsini nəşr etdirərək respublikamızda sintetik kauçukun yaradılmasının mümkünlüyünü elmi faktlarla əsaslandırmışdır.

1934-cü ildən Y.Məmmədəliyev Azərbaycan Dövlət Universitetində əvvəlcə dosent, sonra professor, kimya və neft kafedrasının müdiri vəzifələrində işləmişdir. 1938-ci ildə Moskva Dövlət Universiteti tərəfindən Y.Məmmədəliyevə dissertasiya işi müdafiə etmədən kimya elmləri namizədi elmi adı verilmişdir.

1939-1940-cı illərdə Y.Məmmədəliyevin elmi fəaliyyətində hərbi mövzu ilə bağlı işlər ön plana keçir. O, müharibənin əvvəlində tank əleyhinə yandırıcı butulkalar istehsal etmək üçün xüsusi tərkibli maddələr işləyib hazırlamışdır. 1941-ci ilin sonunda SSRİ EA Azərbaycan Filialının nəzdində Ümumittifaq Mərkəzi Texnologiya Şurasının Kimya Problemləri Bölməsi yaradılmış və Y.Məmmədəliyev onun sədri təyin olunmuşdur.

1942-ci ilin sentyabrında, ölkənin ağır və çətin çağlarında Bakıda Y.Məmmədəliyev "Toluol sintezinin aromatik karbohidrogendə alkilləşdirilməsi və dealkilləşdirilməsi yolu ilə toluolun sintezi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Y.Məmmədəliyevin metodu ilə toluolun sintezi zamanı yüksək-oktanlı törəmə qatışıq məhsullar – izoparafinlər alınmışdı ki, bu da tanklar və təyyarələr üçün çox gərəkli olan mühərrik yanacaqlarının keyfiyyətinin yüksəldilməsinə imkan verirdi.

Cəbhəni aviasiya yanacağı ilə təmin etdiyinə görə Y.Məmmədəliyev 1942-ci ildə Lenin ordeninə layiq görülmüş, 1945-ci ilin sonunda isə Stalin mükafatı ilə təltif olunmuşdur.

Y.Məmmədəliyev 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, EA Rəyasət Heyətinin üzvü seçilmiş və Akademiyanın Neft İnstitutunun direktoru vəzifəsinə təyin olunmuşdur. O, Azərbaycanda kimya elmi üzrə ilk akademik olmuşdur. Azərbaycan Elmlər Akademiyası Neft İnstitutunun, Neft-Kimya Prosesləri İnstitutunun, Azərbaycan Dövlət Universiteti neft kafedrasının yaradılması onun adı ilə bağlıdır.

Y.Məmmədəliyev 1958-ci ildə yenidən Akademiyanın prezidenti seçilmiş və ömrünün sonuna qədər bu vəzifədə çalışmışdır. O, 1958-ci ildə "Üzvi kimya" ixtisası üzrə SSRİ Elmlər Akademiyasına müxbir üzv seçilmişdir.

Y.Məmmədəliyevin dünya elmi qarşısındakı misilsiz xidmətlərindən birini də 1950-ci ildə strateji raketlər üçün yanacaq yaratması təşkil edir.

Y.Məmmədəliyev 1951-1954-cü illərdə Azerbaycan SSR EA Fizika, Kimya və Neft bölməsinin akademik-katibi olmuş, 1954-1958-ci illərdə isə Bakı Dövlət Universiteti rektor təyin edilmişdir. 1958-ci ildə yenidən akademik Y.Məmmədəliyev Azərbaycan Milli Elmlər Akademiyasına prezident təyin olunmuşdur.

AMEA Neft-Kimya Prosesləri İnstitutunun təməlini qoyan akademik Y.Məmmədəliyevi nəinki respublikamızda, dünyada "neft kimyasının, neft emalının və üzvü sintezin" banisi, eyni zamanda polimerlər kimyasının yaradıcısı kimi tanınmışdır.

200-dən çox sanballı elmi əsər, 6 monoqrafiyanın müəllifi olan, 36 elmlər doktoru və namizədi yetişdirmiş, ABŞ-da Fransada, İngiltərədə, Polşada, Monqolustanda və digər ölkələrdəki beynəlxalq konfrans və simpoziumlarda vətənimizi ləyaqətlə təmsil etmiş bu böyük alim, eyni zamanda böyük ictimai xadim idi. O, SSRİ Ali Sovetinin (4-cü çağırış, 1955-1958), (5-ci çağırış, 1958-1961) və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

Kimyaçı alim, kimya elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın akademiki və prezidenti, SSRİ EA müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı Yusif Məmmədəliyev 1961-ci il dekabrın 15-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.